# Bacı-qardaşınla yola gedirsən?

«Bir-birinizə qarşı həmişə səbirli olun, birinizin digərindən şikayəti olsa da, bir-birinizi ürəkdən bağışlayın» (Koloslulara 3:13).

Münaqişələri həll etmək bacarığına yiyələnmək olduqca vacibdir. Buna öz ailəndən başlaya bilərsən. Aşağıda gətirilən suallar vasitəsilə bacı-qardaşınla aranızdakı problemi tap, analiz et və həll et.



## PROBLEM NƏDƏDİR?

Ən çox hansı bacın və ya qardaşınla yola gedə bilmirsən?

___

Bacı-qardaşınla ən çox nəyin üstündə dalaşırsınız?

___

Münaqişə nəyə görə böyüyür?

*Bacımın (qardaşımın)...* (hərəkətini yaz)

___

*məni...* (öz reaksiyanı yaz)

___

*... gətirib çıxardı* (nəticəni yaz)

___



www.jw.org © 2016 Watch Tower Bible and Tract Society of Pennsylvania



## PROBLEMİ ANALİZ ET

**MÜQƏDDƏS KİTABDA DEYİLİR:**
«Təkcə özünüzü fikirləşməyin, başqalarını da fikirləşin» (Filippililərə 2:4). Bu prinsipi nəzərə alaraq, məsələyə bacının (qardaşının) gözü ilə baxmağa çalış.

Səncə, bacın (qardaşın) münaqişənin düşməsində səbəbi nədə görür?

___

___

___

Əgər bacın (qardaşın) aranızda baş verənlərlə bağlı öz fikrini bildirsəydi, *sənin* haqqında nə deyərdi?

___

___

___

Bacına (qardaşına) nədə haqq verirsən?

___

___

___

## PROBLEMİ HƏLL ET

Ortaq məxrəcə gəlmək və ya güzəştə getmək mümkündürmü? Əgər mümkündürsə, onda təklifin nədir?

___

___

___

Növbəti dəfə aranızda anlaşılmazlıq yaranarsa, məsələnin böyüməməsi üçün *sən* nə edə bilərsən?

___

___

___



www.jw.org © 2016 Watch Tower Bible and Tract Society of Pennsylvania



Növbəti dəfə eyni vəziyyətlə üzləşsən, aşağıda gətirilən hansı prinsipləri tətbiq edə bilərsən?

## MÜQƏDDƏS KİTAB PRİNSİPLƏRİ

- ☐ «Bir-birinizi səmimi qəlbdən, hərarətlə sevin» (1 Butrus 1:22).
- ☐ «Qoy hamı sizi dərrakəli adam kimi tanısın» (Filippililərə 4:5).
- ☐ «Küsəyən olma, inciklik axmağın nişanıdır» (Vaiz 7:9, haşiyə).
- ☐ «Davanı başlamaq su bəndini açmağa bənzər; dava başlamamış oradan uzaqlaş» (Məsəllər 17:14).
- ☐ «Odun olmayanda ocaq sönər, böhtançı olmayanda da dava kəsilər» (Məsəllər 26:20).
- ☐ «Niyə başqasının gözündə çöpü görürsən, amma öz gözündə tiri görmürsən?» (Mətta 7:3).

Sonda bacında (qardaşında) xoşuna gələn bir cəhəti yaz.

______________________________



www.jw.org © 2016 Watch Tower Bible and Tract Society of Pennsylvania

## *SƏNİN* ÖHDƏNƏ DÜŞƏNLƏR

**MÜQƏDDƏS KİTABDA DEYİLİR:**
«Düşünmədən deyilən söz qılınc zərbəsinə bənzər, hikmətli insanın dili isə məlhəmdir» (Məsəllər 12:18).

«Atam uzun müddət xəstəxanada yatmalı oldu. Maşın sürə bilmədiyim üçün ona baş çəkmək mənə çətin idi. Qardaşıma dedim ki, sürücülük vəsiqəsi almaq istəyirəm, amma o dedi ki, mənə maşın sürməyi öyrətməyə vaxtı yoxdur. Hətta ona bunun səbəbini deməyimin belə xeyri olmadı. Mən özümdən çıxıb qardaşıma dedim ki, mənim atamı görüb-görməməyim onun vecinə deyil və mənim nələr keçirdiyim ona maraqlı deyil. Sözlərim onun qəlbinə dəydi. Biz bir-birimizin üstünə qışqırdıq, bir-birimizi laqeydlikdə günahlandırdıq» (Karina).

Özünü Karinanın yerinə qoy. Vəziyyəti necə yoluna qoyardın?

______________________________________________

______________________________________________

______________________________________________

**KARİNA NƏ ETDİ?** «Səhəri gün qardaşımla yaxşıca söhbət etdik. O, baş verənlərə görə üzr istədi və izah etdi ki, onun çiyinlərində çox yük var. Mən heç bunu bilmirdim. O, keçirdiyi hissləri mənimlə bölüşdü. Onun yükünü daha da ağırlaşdırdığım üçün ondan üzr istədim. Bilirəm ki, niyyətlərin yaxşı idi, amma vaxt münasib deyildi».





www.jw.org © 2016 Watch Tower Bible and Tract Society of Pennsylvania